# İyirmi iki il əvvəl bu gün...

## Azərbaycan Avropa Şurası üzvlüyünə qəbul edilmişdir




*Biz demokratiya, siyasi plüralizm, insan hüquqlarının qorunması yolu ilə gedirik. Bizim başqa yolumuz yoxdur... Bunu ona görə etmirik ki, hansısa Qərb ölkəsinin xoşuna gəlsin və bizi Avropa Şurasına qəbul etsinlər. Ona görə edirik ki, biz dövlət müstəqilliyi əldə etdikdən sonra özümüzə bu yolu seçmişik. O ki qaldı, Avropa Şurasına qəbul olunmağa, əlbəttə, biz Avropanın bir hissəsiyik. Biz Avropa ailəsində olmaq istəyirik. Əgər kimsə bunu istəmirsə, nə demək olar, biz bunsuz da yaşaya bilərik.*

**Ümummilli lider Heydər Əliyevin Avropa Şurası nümayəndə heyəti ilə görüşdəki söhbətindən
Bakı, 3 yanvar 2001-ci il**

**Ulu öndər Heydər Əliyev ölkəmizdə siyasi rəhbərliyə qayıdandan sonra Azərbaycanı dünyanın bütün ölkələri və beynəlxalq təşkilatları üçün açıq elan etmişdi. Yəni biz öhdəlik götürürdük ki, istisnasız olaraq bütün ölkələrlə dostluq və tərəfdaşlıq edəcək, imzaladığımız bütün konvensiyaların tələb və şərtlərini yerinə yetirəcəyik. Ancaq həm SSRİ-dən yeni ayrıldığımıza, həm də müstəqilliyin ilk illərində ölkəyə rəhbərlik edən şəxslərin xarici siyasətdəki kobud səhvlərinə görə bəzi beynəlxalq təşkilatlar bizə inanmaq istəmirdilər. Heydər Əliyev öz siyasi kursunun əsas konturlarını dünya ictimaiyyətinə təqdim edəndən sonra isə bizə olan münasibətlər köklü şəkildə dəyişdi.**

Nəticədə, 1995-ci ilin əvvəlində Avropa Şurasının Parlament Assambleyası ölkəmizin Avropa Şurasına üzv qəbul edilmək üçün müraciət hüququnu nəzərdə tutan müvafiq tövsiyəyə uyğun olaraq, Azərbaycanın “xüsusi dəvət edilmiş qonaq” statusu almaq barədə müraciətinin nəzərdən keçirilməsi təşəbbüsü ilə çıxış etmişdir. Sonrakı ilin martında isə Avropa Şurasının Qanun vasitəsilə Demokratiya üzrə Avropa Komissiyasının (Venesiya Komissiyası) iclasında Azərbaycan bu komissiyaya üzv qəbul edilmişdir. 1996-cı ilin iyun ayında AŞPA Bürosu Azərbaycanın demokratik dövlət quruculuğu istiqamətində səylərini nəzərə alaraq, ölkəyə “xüsusi dəvət olunmuş qonaq” statusunun verilməsi haqqında qərar qəbul etmişdir.

1996-cı ilin sentyabrında AŞ Nazirlər Komitəsinin iclasında Azərbaycanın Avropa Şurasına daxil olması, Azərbaycanda demokratiyaya keçid prosesinin sürətləndirilməsi məqsədilə Azərbaycan hakimiyyət dairələri ilə danışıqların intensivləşdirilməsi, əməkdaşlıq proqramları formasında yardım edilməsini nəzərdə tutan qətnamə qəbul edilmişdir. Qətiyyətlə deyə bilərik ki, ölkəmizin bu təşkilata üzv qəbul edilməsi ümummilli lider Heydər Əliyevin həyata keçirdiyi ardıcıl və məqsədyönlü siyasətin nəticəsində mümkün olmuşdur. Belə ki, məhz onun təşəbbüsü ilə Azərbaycanda 1993-cü ildən ölüm cəzasına moratorium qoyulmuş, 1998-ci ildə isə ləğv edilmişdir. Ölüm cəzasının ləğvi və cəza siyasətinin humanistləşdirilməsi Azərbaycanın Avropa ailəsinə qoşulmasını təmin edən mühüm amillərdən biri olmuşdur.

Bundan başqa, həmin prosesin sürətləndirilməsində Prezident Heydər Əliyevin ardıcıl olaraq imzaladığı mühüm tarixi əhəmiyyətli dövlət sənədləri də böyük rol oynamışdı. Məsələn, ulu öndər 1996-cı il iyulun 8-də “Avropa Şurası və Azərbaycan Respublikası arasında əməkdaşlıq proqramının həyata keçirilməsi tədbirləri haqqında”, 20 yanvar 1998-ci ildə “Azərbaycan Respublikası ilə Avropa Şurası arasında əməkdaşlığın dərinləşdirilməsi və Azərbaycan Respublikasının Avropada mənafelərinin müdafiə edilməsi sahəsində tədbirlər haqqında”, 1999-cu il mayın 14-də “Azərbaycan Respublikası ilə Avropa Şurası arasında əməkdaşlığın dərinləşdirilməsi və Azərbaycan Respublikasının Avropada mənafelərinin müdafiə edilməsi tədbirləri haqqında” sərəncamlar imzalamışdır.

AŞPA-nın 1997-ci ilin aprelində keçirilən yaz sessiyasında Cənubi Qafqaz münaqişələri ilə əlaqədar olaraq sərhədlərin toxunulmazlığı, beynəlxalq sülhü mühafizə qüvvələrinin vasitəçiliyi ilə münaqişə zonalarında təhlükəsizliyin təminatı, bütün əlaqədar tərəflər arasında danışıqlardan sonra Abxaziya və Dağlıq Qarabağ üçün geniş muxtariyyət statusu, qaçqınlar və məcburi köçkünlərin öz yerlərinə qayıtmaq hüququ ilə bağlı prinsiplərin əks olunduğu qətnamə qəbul edilmişdir. Xatırladaq ki, ermənilər həmin qətnaməyə qəti şəkildə etiraz etmişdilər ki, biz muxtariyyət yox, müstəqillik istəyirik. Sonra zaman onları başqa həqiqətlərlə üz-üzə qoydu. Azərbaycan isə həmişə olduğu kimi, yenə də sülh naminə kompromisə razı idi.

Qərəz, 2000-ci ilin yayında AŞPA-nın növbəti sessiyasında 126 deputatın iştirak etdiyi səsvermədə 120 nəfər lehinə, 1 nəfər əleyhinə, 5 nəfər isə bitərəf qalmaqla Azərbaycan Respublikasının Avropa Şurasının tamhüquqlu üzvlüyünə qəbul edilməsinə dair müsbət rəy verilmişdir. Ancaq, bu, hələ işin bitməsi deyildi. AŞPA-nın Nazirlər Komitəsi də öz sözünü deməli idi. Heydər Əliyevin uğurlu siyasəti və diplomatik gedişləri nəticəsində cəmi yarım il sonra həmin qurum da öz mövqeyini açıqladı. Belə ki, 2001-ci il yanvarın 17-də Avropa Şurası Nazirlər Komitəsinin nümayəndələr səviyyəsində keçirilmiş iclasında Azərbaycan Respublikasının Avropa Şurasına tamhüquqlu üzv qəbul edilməsinə dair qərar qəbul edildi.Ulu öndər Heydər Əliyevin həmin il yanvarın 25-də Strasburqda Avropa Şurası Parlament Assambleyasındakı tarixi çıxışında qurumla ölkəmiz arasındakı qarşılıqlı münasibətlərin əsas istiqamətləri müəyyənləşdirildi.

Bu qurumla əməkdaşlığımızın təməlini ulu öndər Heydər Əliyev qoysa da, oradakı fəaliyyətimizi Milli Məclisin o zamankı deputatı – 2001-2003-cü illərdə AŞPA-da Azərbaycanı təmsil edən nümayəndə heyətinin rəhbəri İlham Əliyev başlamış və ciddi uğurlara imza atmışdır. Həm ulu öndərin Strasburqdakı tarixi çıxışı, həm də deputat İlham Əliyevin AŞPA sessiyalarındakı qətiyyətli fəaliyyəti başqa yazıların mövzusudur.

Bu sətirləri isə dövlət başçımızın ötən il aprelin 4-də Avropa Şurasının Baş katibi xanım Mariya Peyçinoviç Buriçin rəhbərlik etdiyi nümayəndə heyətini qəbul edərkən eşitdiyimiz məlumatları xatırlatmaqla yekunlaşdırmaq istərdik: Hazırda Azərbaycan Respublikası Avropa Şurası çərçivəsində qəbul edilmiş 60-dan çox beynəlxalq konvensiyanın iştirakçısıdır. Azərbaycan Respublikası Milli Məclisinin AŞPA-dakı nümayəndə heyəti 6 həqiqi və 6 əvəzedici üzv olmaqla, ümumilikdə, 12 üzvdən ibarətdir. Nümayəndə heyəti sessiyanın gündəliyinə uyğun olaraq, Azərbaycanın maraq və mənafelərinə xidmət edən təşəbbüslər irəli sürür, müvafiq sənədlər üzrə müzakirələrdə fəal iştirak edir.

**Hazırladı:
İttifaq MİRZƏBƏYLİ,
“Xalq qəzeti”**